OSCE Organization for Security and Co-operation in Europe office in Baku

"Foreign and Commonwealth Office"

USAID AMERİKA XALQINDAN

ŞƏFFAFLIQ AZƏRBAYCAN

# "ŞƏFFAFLIQ AZƏRBAYCAN" KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İCTİMAİ BİRLİYİ

### YANVAR - MART 2008-CI IL ƏRZINDƏ GÖRÜLƏN IŞLƏR BARƏDƏ

## MƏTBUAT ÜÇÜN HESABAT

1. **TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT**
2. **MƏRKƏZLƏRIN FƏALIYYƏTI HAQQINDA MƏLUMAT**
3. **DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ**
4. **MÜRACIƏTLƏRIN ÜMUMI STATISTIKASI**
5. **UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR**

## 1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan "Transparency İnternational" (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı anti-korrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə anti-korrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-rı olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005 ci il Aprel ayının 1-dən etibarən "Şəffaflıq Azərbaycan" İB, MDB ölkələri arasında ilk dəfə olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquq Məsləhət Mərkəzi) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşlara müxtəlif pulsuz xidmətlər göstərir. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 59 05 92**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 37 ya 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55 ya 4 48 90**

Layihə, Boyuk Britaniya Xarici İşlər Nazirliyinin "Global Opportunities Fund" (Qlobal İmkanlar Fondu) proqramı, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD təşkilatı), eləcə də ATƏT-in Bakı ofisinin qrant dəstəyi əsasında həyata keçirilir. Bu layihə bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

Layihənin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

Layihənin başlıca missiyası isə vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurlarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

**Layihə beş istiqamətdə həyata keçirilir:**

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institutsional inkişafına yardım**
- **Mobil treninq və seminar**

**Hüquqi məsləhət:** Hüquqi məsləhət vətəndaşlara öz hüquqlarının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

**Maariflənmə və məlumatlandırma:** Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin anti-korrupsiya sahəsində maariflənmməsini nəzərdə tutur.

**İctimai maraqların müdafiəsi:** Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

**Dövlət orqanlarının institusional inkişafına yardım:** Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xəttlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

**Mobil treninq və seminarlar:** Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil anti-korrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

## 2. MƏRKƏZLƏRIN FƏALIYYƏTI HAQQINDA MƏLUMAT

- *Seminar və Tədbirlər*

**Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və həmçinin özlərinin təşkil etdiyi 35 seminar, dəyirmi masa və konfranslarda iştirak etmiş və həmçinin yerləşdikləri ərazi üzrə yaşayan əhaliyə korrupsiya ilə bağlı mübarizə üzrə maarifləndirmə məqsədi ilə 70 seminar təşkil ediblər.**

Aşağıda ayrı-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:[1]
Layihənin Bakı ofisi cari ilin Fevralın 27-də Turizm İnstitutunun 100 nəfərlik tələbə heyəti üçün seminar təşkil etmişdir. Təlim xarakteri daşıyan görüş zamanı tələbələrin nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında və təşkilatın həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzi" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb. Seminar zamanı həmçinin "turizm və korrupsiya" mövzusu ətrafında müzakirə aparılmışdır.



*Turizm İnsitutunda təhsil alan tələbələr üçün keçirilən seminar*

Layihənin Gəncə ofisi cari ilin Fevralın 20-də Ağstafa rayonunun Xətai kəndində yerləşən orta məktəbin 50 nəfərlik müəllim heyəti üçün seminar keçirmişdir. Müəllimləri layihənin xidmətləri ilə bağlı tanış edən mərkəzin əməkdaşı şikayəti olanlara yerində pulsuz hüquqi yardım göstərmişdir. Kənd sakinlər daha çox daşınmaz əmlakın qeydiyyatı və məhkəmələrdə korrupsiya faktlarının olduğu bağlı öz narazılıqlarını bildirirdilər.



*Xətai kənd orta məktəbində keçirilən seminar*

---

[1] ***Hesabatda yalnız hər mərkəz üzrə bir seminar işıqlandırılıb. Mərkəzlərin keçirdiyi digər seminarlar haqqında əlavə məlumat almaq üçün Layihənin Baş Koordinatoru Ceyhun Atayev ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.***

Layihənin Lənkəran ofisi cari ilin Martın 18-də Masallı rayonunun Qarqalıq kəndində 30 nəfər kənd sakini ilə görüş keçirmişdir. Görüş zamanı iştirakçılar daha çox özəl sektor, yol-tikinti sahəsi, poçt və yerli icra nümayəndəliklərində olan korrupsiya halları ilə bağlı şikayətlər ilə çıxış edirdilər. Layihənin hüquqşünası şikayətçilərə hüquqi məsləhət göstərərək onlara şikayət prosedurunu başa salmışdır. Yazılı şikayətlər öz növbəsində aidiyyatı orqanlara göndərilmişdir.



*Masallının Qarqalıq kəndində keçirilən təlim*

Layihənin Quba ofisi cari ilin Martın 19-da Quba şəhərində yerləşən orta məktəblərin 30 nəfərdən ibarət direktorları üçün seminar keçirilmişdir. Maarifləndirmə xarakteri daşıyan seminar zamanı tədbir iştirakçılarının nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında, "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın" icrası üzrə tədbirlər planı, "Transparency İnternational" təşkilatı və onun yerli bölməsi sayılan "Şəffaflıq Azərbaycan" təşkilatının fəaliyyət istiqamətləri və təşkilatın həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzi" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb.



*Qubada orta məktəb direktorları üçün keçirilən seminar*

Layihənin Şəki ofisi cari ilin Fevralın 4-də Şəki şəhərinin Bolludərə kəndində 38 nəfər kənd sakini görüş keçirmişdir. Sakinlər daha çox kommunal xidmətlər, hərbi kommisarlıq, səhiyyə və məhkəmələrin işi ilə bağlı şikayətlənirdilər. Şikayətçilərə yerində hüquqi yardım göstərilmişdir.



*Şəkinin Bolludərə kəndinin sakinləri üçün seminar*

## 3. DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ

“Şəffaflığın artırılması və Korrupsiyaya qarşı Mübarizə” üzrə Milli Strategiyanın 27 iyul 2007-ci ildə təsdiqlənməsindən sonra “Şəffaflıq Azərbaycan” təşkilatı ayrı-ayrı dövlət orqanları üzrə Strategiyada nəzərdə tutulan Fəaliyyət Planına əsasən, müxtəlif dövlət oqranlarında anti-korrupsiya maarifləndirmə təlimləri keçirmişdir. Layihənin Bakı, Gəncə, Lənkəran və Quba mərkəzlərinin nümayəndələri Yanvar-Mart 2008-ci il ərzində bununla bağlı bir sıra seminarlar keçirib.

Bakı mərkəzi hesabat dövrü ərzində Bakı şəhər Baş Polis İdarəsində və İdarənin tabeçiliyində olan səkkiz Polis İdarəsində, Auditorlar Palatasında, Suraxanı və Qaradağ rayon icra hakimiyyətlərində, Vergilər Nazirliyində və Nazirliyin departamentlərində; Dövlət Gömrük Komitəsində;

Gəncə mərkəzi Gəncə, Şəmkir, Xanlar və Samux rayon Polis İdarələrində, Vergilər Nazirliyinin Gəncə və Yevlax üzrə Ərazi İdarələrində və Gəncə şəhər Nizami rayonunun Dövlət Sosial Müdafiə Fondunda;

Lənkəran mərkəzi Müdafiə Nazirliyinin Lənkəran şəhəri üzrə regional hərbi qarnizonunda, Dövlət Sosial Müdafiə Fondunun Lənkəran şəhər şöbəsində, Lənkəran şəhər Polis İdarəsində, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Lənkəran şəhəri üzrə Regional Bürosunda və Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin Lənkəran şəhəri üzrə Regional İdarəsində;

Quba Mərkəzi Vergilər Nazirliyinin Quba rayonu üzrə Ərazi İdarəsində seminarlar keçirilib;





*Polis İdarələrində keçirilən seminarlar*




*Azərbaycan Respublikası Auditorlar Palatasında keçirilən seminar*




*İcra Hakimiyyətlərində keçirilən seminarlar*




*Dövlət Sosial Müdafiə Fondunun Gəncə və Lənkəran üzrə Ərazi İdarələrində keçirilən seminarlar*




*Vergilər Nazirliyi və Nazirliyin Ərazi İdarələrində keçirilən seminarlar*





*Lənkəranda Müdafiə Nazirliyinin Hərbi Qarnizonu, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin Ərazi İdarələrində keçirilən seminarlar*

"Transparency İnternational" təşkilatının Qazaxıstan və Qvatemala ölkələrindəki nümayəndəliklərinin əməkdaşları "Şəffaflıq Azərbaycan" İB-ynin həyata keçirdiyi "İctimai Maraqların Qorunması və Hüquqi Məsləhət Mərkəzi" Layihəsinin Azərbaycandakı tətbiqi təcrübəsinindən istifadə etmək məqsədilə cari ilin Yanvar-Fevral aylarında Bakıda səfərdə olmuşlar. Səfər çərçivəsində onlar öz ölkələrində analoji layihənin həyata keçirilməsi məqsədilə "Şəffaflıq Azərbaycan"nın Bakı ofisinin əməkdaşları tərəfindən təlim keçiblər.




*"Şəffaflıq Azərbaycan"öz təcrübəsi ilə bölüşür*

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər.

Layihənin Lənkəran Mərkəzi hesabat dövrü ərzində cənub regionunda fəaliyyət göstərən "Hüquqi Yardım", "Demokratik Nəzarət" "Gənclərə Yardım" və "Gələcəyə Körpü" İctimai Birlikləri, AEGEE Gənclər təşkilatı və digər yerli gənc təşkilatların keçirtdikləri tədbirlərdə ev sahibliyi etmişdir. Keçirilən tədbirlərdə yerli QHT-lərin rolu və vəzifələri haqqında və digər mövzular ətrafında müzakirələrdə iştirak etmişlər.





"Şəffaflıq Azərbaycan"nın Lənkəraində yerli QHT-lərin iştirakı ilə keçirilən tədbirlər

Cari ilin Yanvarın 9-da Quba Mərkəzində Milli QHT Forumunun Quba üzrə Regional QHT-lərin Təlim-Resurs Mərkəzinin əməkdaşları ilə regionda erkən nigahlar mövzusu ətrafında fikir mübadiləsi aparılmışdır.



*Qubada keçirilən dəyirmi masa*

Hesabat dövrü ərzində Şəki Mərkəzində orta məktəb şagirdlərinin iştirakı ilə "Sülh Korpusu"nun dəvət olunmuş iki əcnəbi vətəndaşının iştirakı ilə ingilis dilində müzakirələr keçirilmişdir.




*Şəki mərkəzində şagirdlər üçün ingilis dilində keçirlən debatlar*

## 4. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 1717 ilkin zəng və şikayət qəbul edib: Bakı (235), Gəncə (587), Lənkəran (281), Quba (318) və Şəki (296).

*Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.*




## Şikayətçilərin cinsi

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, kişilər qadınlara nisbətən daha çox şikayət ilə mərkəzlərə müraciət edirlər. Bu hal özünü daha çox kənd yerlərində biruzə verir. Buna əsas verən amillərdən biri isə görüşlərin çayxana və ya ofis daxilində keçirilməsidir. Gəncə və Quba şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir. Bununla belə, Lənkəran və Şəkidə məktəblərdə təşkil olunan tədbirlərdə də qadınların çoxluq təşkil etmələri müşahidə olunurdu.

*Aşağıda göstərilən diaqramda hər beş mərkəzə hesabat dövrü ərzində, habelə Layihənin həyata keçirilmə dövründən bəri müraciət edən şikayətçilərin cinsi nisbətini göstərilib:*

| Şikayətçilərin cinsi | | Bakı XII rüb | Gəncə XII rüb | Lənkəran XII rüb | Quba XII rüb | Şəki XII rüb |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 171 | 387 | 230 | 220 | 213 |
| B | Qadın | 64 | 200 | 51 | 98 | 83 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| C | **Şikayətlərin ümumi sayı** | 235 | 587 | 281 | 318 | 296 |

## Şikayətçilərin yaşı

Hər yerdə olduğu kimi, ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Bununla belə, digər qrupların xüsusi cəhdləri nəticəsində cavan nəsil də yaxşı təmsil olunma imkanından bəhrələnir. Gənclərin isə son hesabatlara əsasən aktivliyi müşahidə olunur.

| **Yaş qrupu** | | **Bakı XII rüb** | **Gəncə XII rüb** | **Lənkəran XII rüb** | **Quba XII rüb** | **Şəki XII rüb** |
|---|---|---|---|---|---|---|
| A | < 20 | 2 | 9 | 0 | 15 | 2 |
| B | 20 – 35 | 39 | 49 | 42 | 87 | 48 |
| C | 35 – 50 | 98 | 93 | 194 | 126 | 111 |
| D | 50 – 65 | 39 | 318 | 25 | 59 | 58 |
| E | 65 + | 10 | 92 | 2 | 21 | 32 |
| F | Müəyyən deyil | 47 | 26 | 18 | 10 | 45 |
| **G** | **Ümumi say** | **235** | **587** | **281** | **318** | **296** |

## Şikayətçilərin coğrafi yerləşməsi

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə regional mərkəzlər kənd yerlərində mobil təlimlər keçirmək yolu ilə daha çox kənd əhalisinin ehtiyacları ilə məşğul olublar.

## Şikayətlər ilkin olaraq necə qəbul olunur

Vətəndaşların telefon vasitəsilə əvvəlcədən görüş təyin etməkdən çox sadəcə gəlməyə üstünlük vermək tendensiyası azalmaqdadır. Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

## Şikayətlərin ünvanlandığı sahələr

Hər bir mərkəzdə eyni olaraq, məhkəmə sistemi şikayətlərin ən çox ünvanlandığı sahədir. Digər sahələrə isə icra orqanları, polis, dövlət sosial müdafiə fondu, təhsil, səhiyyə və bələdiyyələrə aiddir:




| | Sahələr üzrə | Bakı XII rüb | Gəncə XII rüb | Lənkəran XII rüb | Quba XII rüb | Şəki XII rüb |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 28 | 98 | **7** | 68 | 36 |
| B | Səhiyyə | 8 | 23 | 3 | 7 | 13 |
| C | Təhsil | 15 | 22 | 5 | 12 | 5 |
| D | Gömrük | 0 | 0 | 0 | 2 | 0 |
| E | Vergi/Maliyyə | 4 | 0 | 1 | 2 | 1 |
| F | Polis | 23 | 78 | 12 | 19 | 34 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 0 | 0 | 2 |
| H | Alqi-satqı | 0 | 0 | 0 | 0 | 3 |
| I | Özəlləşdirmə | 4 | 0 | 13 | 0 | 13 |
| K | Inspeksiya | 0 | 0 | 0 | 0 | 5 |
| L | İcra orqanları | 9 | 48 | 38 | 1 | 14 |
| M | Pensiya və ünvanlı sosial yardım | 21 | 20 | 3 | 22 | 12 |
| N | Əmək mübahisəsi | 2 | 10 | 0 | 4 | 12 |
| O | Bələdiyyə | 23 | 71 | 64 | 27 | 14 |
| P | Prokurorluq | 28 | 79 | 0 | 1 | 5 |
| Q | Özəl sektor | 5 | 0 | 1 | 41 | 2 |
| R | Hərbi Kommisarlıq | 2 | 12 | 1 | 0 | 6 |
| S | Kommunal xidmətlər | 20 | 126 | 133 | 77 | 103 |
| T | Müəyyən deyil | 43 | 0 | 0 | 35 | 16 |
| U | Müxtəlif sahələr üzrə ünvanlanan çikayətlərin ümumi sayı | **235** | **587** | **281** | **318** | **296** |

## 5. UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR[2]

### Bakı mərkəzi üzrə

1. **Daşınmaz əmlakı təsdiq edən sənədlər verildi.** Vətəndaş şikayət edirdi ki, ona Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən müvafiq sənədlər verilmir. "Şəffaflıq Azərbaycan"ın məsələyə müdaxiləsindən sonra, vətəndaş Dövlət Reyestr Xidmətinə dəvət edilərək həmin vətəndaş tərəfindən təqdim ediləcək lazimi sənədlərin siyahısı verilmişdir. Sonda, vətəndaşa daşınmaz əmlakın sahibliyini müəyyən edən sənədlər verildi.

2. **Əmək hüquqlarının pozulması faktı təsdiq edilərək bərpa edildi.** Dövlət müəssisəsinin əməkdaşı şikayət edirdi ki, onun hüquqları işlədiyi müəssisə tərəfindən pozulur. "Şəffaflıq Azərbaycan"ın məsələyə müdaxiləsindən sonra, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi vətəndaşın hüquqlarının pozulmasını tanımış və müəssisəyə qarşı sanksiyalar tətbiq etmişdir.

3. **Tələbə Universitetə bərpa edildi.** Tələbə şikayət edirdi ki, o heç bir səbəb olmadan Universitetdən xaric edilmişdir. "Şəffaflıq Azərbaycan"ın məsələyə müdaxiləsindən sonra, Təhsil Nazirliyi məsələ ilə maraqlandı və Universitet rəhbərliyinə tələbəni 2008-2009-cu tədris ilində Universitetə bərpa etməyə əmr etdi.

4. **Yaşayış binasının yenidən bərpasına razılıq verildi.** Dövlət Neft Şirkətinin nəznində olan yaşayış binasında məskunlaşan vətəndaş şikayət etmişdir ki, binada təcili olaraq bərpa işləri görülməlidir. "Şəffaflıq Azərbaycan"ın məsələyə müdaxiləsindən sonra, Dövlət Neft Şirkəti binanın qəza vəziyyəti ilə maraqlandı və üzərinə binada yenidən bərpa təmir işləri aparmağı öhdəliyini götürdü.

5. **Kommunal xidmətlərə olan borclar dəqiq müəyyən edildi.** Kommunal xidməti orqanları tərəfindən dəyəri şişirdilmiş qiymətlərdən şikayət edən iki vətəndaşın borcları dəqiq qiymətlə müəyyən edildi.

6. **Vətəndaşlar işlədikləri müəssisəyə bərpa edildilər.** Dövlət müəssisəsi qeyri-qanuni olaraq özünün iki əməkdaşını vəzifələrindən azad etdi. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, hər iki vətəndaş əvvəl işlədikləri vəzifələrə yenidən bərpa edildilər.

7. **Qeyri qanuni özəlləşdirmə ləğv edildi.** Goranboy rayon İcra Hakimiyyəti broyler fabrikinin özəlləşdirməsinin ləğvi üzərində çalışır. Özəlləşdirmə broyler fabirikində işləyən əmək kollektivinin hüquqlarının pozulmasına gətirib çıxarmışdır.

8. **Özəl şirkətə qarşı fırıldaqçılıq faktı üzrə cinayət işi açılıb.** Şirkətin əməkdaşı şirkət rəhbərliyinin qeyri-qanuni hərəkətlərindən şikayət edib. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, şirkətin rəhbərliyinə qarşı cinayət işi açılmışdır.

9. **Özəl şirkət əllilik şəhadətnaməsini verməyə məcbur edildi.** Özəl şirkətin keçmiş əməkdaşı şikayət edirdi ki, şirkət ona işlədiyi zaman zədələr aldığına görə əllik şəhadətnaməsi ala bilmir.

[2] *Burada yalnız uğurla həll edilmiş işlərin yalnız bəziləri qeyd olunub. Uğurlu işlərin tam siyahısını əldə etmək üçün 418 11 09.596 20 38 telefon nömrələri ilə "Şəffaflıq Azərbaycan" İB-yi ilə əlaqə saxlaya bilərsiniz.*

"Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göstərişi ilə vətəndaşın hüququ bərpa edildi.

10. **Şikayətlərə baxıldı və lazimi tədbirlər görüldü.** İki vətəndaş şikayət edirdilər ki, polis döyülmə faktının araşdırmaqdan imtina edir. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, hər iki iş açıldı. Vətəndaşın birinin işinə əsasən təqsirkar şəxs həbs edilmiş və onun işi məhkəməyə verilmişdir, digər vətəndaşın işi üzrə təqsirləndirilən şəxs isə polisin "axtarılan şəxslər" siyahısına əlavə edilmişdir.

11. **Məhkəmə qərarı icra edildi.** Vətəndaş şikayət edirdi ki, məhkəmə icraçısı məhkəmə qərarını icra etməkdən imtina edir. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, məhkəmə qərarı icra edildi.

12. **Əmtəə malları gömrükdən keçirildi.** Vətəndaş şikayət edirdi ki, o özünün deklarasiya olunmuş mallarını gömrükdən keçirə bilmir. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, şikayətə baxılmış və vətəndaşın malları gömrükdən keçmişdir.

## Gəncə mərkəzi üzrə

1. **Dövlət qulluqçusu vəzifəsindən azad edildi və əlillik dərəcəsi verildi.** Vətəndaş şikayət edirdi ki, ondan əlillik dərəcəsinin alınması üçün 200 manat rüşvət tələb edilib. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, vətəndaşa əlillik dərəcəsi verildi və təltif komissiyasının rəhbəri vəzifəsində azad edildi.

2. **Attestat verildi.** Vətəndaş şikayət edirdi ki, ondan məktəb diplomunun alınması üçün 10 manat məbləğində rüşvət tələb edilib. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, attestat öz sahibinə verildi.

3. **Polis əməkdaşı tərəfindən alınan pul geri qaytarıldı.** Muraciətçi şikayət ərizəsində bildirmişdir ki, yaxın qohumun vasitəsi ilə tanış olduğu polis əməkdaşı ona vəkil tutmaq məqsədi ilə 800 manat almışdır. Müraciətçini aldadaraq, ona kömək etməmiş, pulu isə geri qaytarmamışdır. "Şəffaflıq Azərbaycan"ın məsələyə müdaxiləsindən sonra, Nazirlikdən gələn cavabda bildirildi ki, Təhqiqat İdarəsində araşdırma aparılmış, müraciətçinin pulu ödənilmişdir.

4. **Mənzil özəlləşdirildi.** Müraciətçi bildirirdi ki, yaşadığı mənzili özəlləşdirmək üçün aidiyyatı orqana müraciət edərkən ondan rüşvət tələb olunmuşdur. Müraciətçi tələb olunan rüşvəti vermədiyi üçün süründürməçiliklə üzləşmişdir. Mərkəz tərəfindən olunan müraciətdən sonra müraciətçi 21 gün müddətindü 11 AZN dövlət rüsumu ödəməklə evini özəlləşdirməyə nail olmuşdur.

## Lənkəran mərkəzi üzrə

1. **İki polis əməkdaşı kobud hərəkətlərinə görə cəzalandırıldılar.** Vətəndaşlar şikayət edirdi ki, onlar 2 polis əməkdaşı tərəfindən təhqirə və təzyiqə məruz qalıblar. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, vətəndaş tərəfindən bildirildi ki, həmin şəxslər cəzalandırılıb və onlar şikayətçilərdən üzr istəyiblər.

2. **Pul geri qaytarıldı.** Vətəndaş şikayət edirdi ki, o oxumadığı birinci kursa görə odəmiş təhsil haqqını geri tələb edə bilmir. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, Təhsil Nazirliyindən cavab alındı ki, pul tez bir zamanda veriləcək. Sonradan pul geri qaytarıldı.

3. **Sənədlər qəbul olunub.** Vətəndaş şikayət edirdi ki, ünvanlı sosial yardım almaq üçün onun sənədləri qəbul olunmur. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, sənədlər qəbul olundu.

4. **Sosial yardım ayrıldı.** Vətəndaş şikayət edirdi ki, ünvanlı sosial yardım almaq ucun ondan rüşvət tələb edirlər. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, məsələ müsbət həll olundu. Ona sosial yardım ayrıldi.

## Quba mərkəzi üzrə

1. **Təqaüdün verilməsi təmin edildi.** Vətəndaş şikayət edirdi ki, 4 ay ərzində təqaüdü ala bilmir. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, şikayətçinin hüququnu bərpa edildi.
2. **İddia ərizəsi qəbul edilib və məhkəmə vaxtı təyin edilib**. Vətəndaş şikayət edirdi ki, onun iddia ərizəsi qəbul edilmir. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, iddia ərizəsi qəbul edilib və məhkəmə vaxtı təyin edilib.
3. **Lazimi sənəd təqdim olunub.** Vətəndaş daşınmaz əmlaka dair alqı-satqı müqaviləsinin təsdiq edilməsinə dair sorğuya cavab verilməməsi ilə bağlı şikayətlənib. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, vətəndaş notariata çağrılıb və ona həmin sənədin surətinin təqdim olunduğunu bildirib.
4. **Ödəmənin azaldıldığı bildirilib.** Vətəndaş artıq ödəmə tələb etdiklərindən şikayətlənib. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, ödəmə tələbinin araşdırıldığı və tələb olunan ödəmənin azaldıldığı bildirilib.

## Şəki mərkəzi üzrə

1. **Ərizəçi ehtiyata buraxılıb**. Vətəndaş hərbi hissədə müqavilə üzrə qulluq etmə və müqavilənin müddəti bitdiyi təqdirdə ehtiyata buraxılmamasına dair şikayətlənib. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, ərizəçi ehtiyata buraxılıb.

2. **Doğum şəhadətnaməsi yazılmışdır və valideynlərə təqdim olunmuşdur.** Vətəndaş həkimin qanunsuz hərəkətlərinə dair şikayətlənib. "Şəffaflıq Azərbaycan"nın məsələyə müdaxiləsindən sonra, uşağın adına doğum şəhadətnaməsi yazılmışdır və valideynlərə təqdim olunmuşdur.